Turac

***

Əsdi payız yelləri,
Çiçəklər gizləndilər.
Uzaq elli durnalar
Səmada düzləndilər.

Saçını yoldu bağlar,
Uru yığdı uşaqlar.
Yun əlcəklər, papaqlar
Yenə əzizləndilər.

Bir az keçdi yağdı qar,
Dərə, təpə, çöl hamar.
Yollar, izlər, cığırlar
Təmam təmizləndiər.

1972

TURAC

Çıxdı Kürün qırağında
Qarşıma bir bala turac.
Yada düşdü keçən günlər,
Kaş o dəmlər ola, turac!

Ürkək gözəl təkdi, keçdi,
Kolluqlarda səkdi keçdi.
Sinəmə dağ çəkdi keçdi,
Getmə bir an, qal, a turac!

A Muğanın gözəl qızı,
Unutdunmu andımızı?
At işvəni, burax nazı,
Qon yamaca, yala, turac!

Gəl sənlə səhər-səhər
Seyrə çıxaq biz bir qədər.
Ömrümüzdən keçən günlər
Bir də dönmür dala, turac.

Çöllər yanar Kür olmasa,
Qəlb boş qalar sirr olmasa,
İki ürək bir olmasa
Dostlar getməz yola, turac.

Kürçaylı adlanan kəsin
Dərmanıdır sənin səsin.
Sən oxu, o şeir desin,
Qıyma əhli-hala, turac!

1956

MEYNƏLƏR

Tənək də deyirlər ona, meynə də,
Salxım övladları gilə-gilədir.
Hər gilə şövqüylə gözü göynədir,
Hər gilə mey dolu bir piyalədir.

Yüz illər keçibdir: qoca Hippokrat
Bizim bu elləri gəzib dolaşmış.
O demiş bu üzüm həyatdır, həyat,
Şərabın ecazkar sirrini açmış.

O demiş: körpəyə südlə bərabər
Bir-iki damcı da şərab verin siz.
Onda azar-bezar bilməz igidlər
Onda sağlam olar cavan nəsliniz.

Nə Xəyyam var idi onda, nə də ki,
Şərab təsiriylə yalançı tostlar.
Nə lax yumurtatək boş çənədəki
Əttökən təriflər, saxta etibar.

Nə üzdə vəfalı, sadiq, mehriban,
Arxada zəhərli acı gülüşlər.
Nə də kabab iyi gələn dodaqda
Üzünə şillətək dəyən öpüşlər.

Meynələr var idi yerdə, talvarda,
Salxımlar var idi ağlı-qaralı.
Sərxoşluq adlanan boz canavar da
Yemirdi ürəyi, beyni, xəyalı.

Budaq buğum-buğum, yarpaqlar əl-əl,
Qalxırdı, üstündə günəşli bəhər,
...Niyə qızardınız belə əlbəəl,
Sizdə nə günah var, qızıl meynələr?!

1970

BÜLBÜLLƏR

Oxuyurlar,
Nəğmələri
Nəşə verir insanlara.
Qışda belə oxusalar
Xəyal gedir ilk bahara.
Hər zəngulə
Gilə-gilə
Hopur qalır ürəklərdə.
Hər bir cəh-cəh
Deyir: bəh-bəh!
Ucaldıqca pərdə-pərdə.
Qovuşuruq ilk bahara.

Bahar görür gözlərimiz.
Əbədilik saxlamaqçün
Əlimizdə baharı biz,
Əbədilik yaz ətriylə
Dolsun deyə otağımız,
Lalə-nərgiz əbədilik
Olsun deyə qonağımız –
Bülbülləri budaqlardan
Otaqlara keçiririk.
Azadlıqçün doğulanı
Qəfəslərə köçürürük.

1970

PAYIZ

Demə ki, yarpaqlar döndü xəzələ,
Demə gül-çiçəklər tamam yanıbdır, –
Torpaq da istəyir hərdən bəzənə,
Yox, bütün təbiət xınalanıbdır.

Səhər dan yerinə çəkildi xına,
Axşam qürub yeri oldu xınalı.
Yamaclar büründü qəfil yanğına
Xına atəşinə düşüb yanalı.

Ağacın çətrinə gülab çiləndi,
Xınalı yarpaqlar dinar-dinardı.
O, toy xınasını yaxmış gəlindi,
Yoxsa yarpaqları qızıl Çinardı?!

Payız bu boyanı işlədir yalnız,
Xına çox yaraşır onun hüsnünə:
Mən fəsil demirəm sənə, ay payız,
Xına alverçisi deyirəm sənə!

1961

YAŞIL LÖVHƏ

Qatar cənuba gedir.
Yolların kənarında
Cavan-cavan meşələr yamyaşıl bulud kimidir.
Yaşıldı səthi axan, çağlayan suların da,
Bu zümrüd aləmə bax,
Yamyaşıl sükut kimidir.

Bu sükunət şüşətək quşların səsində sınır,
Hər kiçik qəlpəsini dinlə – yamyaşıl nəqərat.
Çökür axşam.
Bütün hər yan yaşıl alovda yanır,
Yaşıl sel içrə düşüb sanki qərq olur bu həyat.

1974

TƏZƏLƏNDİ

Gəldim Kür sahilinə,
Sahillər təzələndi.
Söyüdlər saç dağıtdı,
Xəzəllər təzələndi.

İllər gerimi döndü?
Üzü bərimi döndü?
Gəncliyimi gətirdi,
O illər təzələndi.

Mənim Arazlı Kürüm,
Sizi müdam cüt görüm!
Sularınız qovuşdu,
Gur sellər təzələndi.

Yarpağı dinar-dinar
Ağcaqovaq, göy çinar
Əl çaldı küləklərə,
Könüllər təzələndi.

Sahil boyu Muğan, Mil
Yandırdı neçə qəndil.
Gecələr ulduz olub,
Qəndillər təzələndi.

Duyğular yurdu sinə,
İlhama gəldi yenə.
Təzələndi arzular,
Əməllər təzələndi.

1978

DAN QIZARANDA

Könlümdə bir dünya arzu oyanır
Dan qızaranda.
Gözümdə talelər gəlib dayanır
Dan qızaranda.

Sanıram lalələr açır gözünü
Dağda, aranda,
Nərgizlər gülabla yuyur üzünü
Dan qızaranda.

Yellər əttar kimi ətir dağıdır,
Gülür cahan da.
Sanıram məhəbbət, sevgi çağıdır
Dan qızaranda.

Sevinc qanadlanır, kədər boğulur
Gülür insan da.
Dünyaya övladtək günəş doğulur
Dan qızaranda.

1971

İLK BAHARDA

Novruzgülü gözlərini
Körpə kimi açdı yenə.
Güneylərə, quzeylərə
Öz ətrini saçdı yenə.

Keçdi bulud qalaqları,
Güldü vətən torpaqları,
İlk baharın dodaqları
Təbəssümlə qaçdı yenə.

Bulaqların dindi sazı,
Salamladı gələn yazı.
Kür üstünün gözəl qızı
Söyüd yaşılsaçdı yenə.

Yurdu el-el gəzirəm mən
Bahar bu il gəlib erkən.
Qızıl lalə, yaşıl çəmən
Çöllərimə tacdı yenə.

Al geyinir el baharda,
Şirvan, Muğan, Mil baharda,
Gözəl olur il baharda,
Nəğmələrim coşdu yenə.

1971

***

Dənizin səthinə bax, gör nə hamar.
Dayanıb seyr eləsən diqqətlə,
Deyəcəksən o zaman heyrətlə,
Deyəcəksən hökmən:
Suların örtüyü vardır şüşədən.

Dənizin səthinə bax, gör nə hamar.
Göylərin əksi düşübdür sulara.
Dənizin rəngi yaşıl, mavi, qara
Qırmızı, ağ və sarı –
Bir ipək tül kimi örtmüş suları.
Seyr edib söyləyəcəksən hökmən.
Suların örtüyü vardır şüşədən.

Yenə şiddətlənib hayqırdı külək:
Baxıram dalğalanıb coşdu sular,
Mavi səhranı sanki şumladılar! –
Dənizin şüşəsini qırdı külək.

Livadiya, 1958

LÖVHƏ

Səmada dövrələnirkən
buludların düzümü,
Zillədim göylərə heyrətlə
yol çəkən gözümü –
İldırımlar
mənə göstərdi
nurlu güqdüzümü.
Sübhədək
mən belə süzdüm
bahar yağışlarını,
Saplı mirvaritək üzdüm
bahar yağışlarını,
Güllərin boynuna düzdüm
bahar yağışlarını!

1960

***

Dəniz sakit olanda
Sahilə gəldi uşaq.
O baş vurdu sulara
Əl-qolunu ataraq.

O bilmirdi dənizdə
Fırtına var, dalğa var,
Suların həmləsindən
Parçalanır qayalar.

O nə görüb nə bilsin –
Ona dərə də düzdür.
Ancaq mənim gözümdə
Dəniz elə dənizdir.

1960

QATARDAN AYRILMIŞ DURNA

Qərib bir durnayam, ay dost, qatardan ayrı düşdüm mən,
Qəfil güllə cüda saldı məni ulduzlu göylərdən.
Qəfil güllə nə öldürdü, könül qurtarsın həsrətdən,
Nə qoydu kam alım bir dəm uçuş adlı səadətdən.
Uçardım mən, çəkinməzdim əsən yeldən, yağan qardan,
Keçərdim dadlı nəğməmlə o sərhədsiz səmalardan.
Ucalmaqçün yaranmışlar vüqar ilə dinər göydə,
Məni dinlərdi heyrətlə günəş, ulduz, qəmər göydə.
Mənim nəğməm səmalarda sanardım odlu şimşəkdi,
Ürəklərlə, diləklərlə, çiçəklərlə həmahəngdi.
Üfüqlər adladım gəldim qatarda öndə getdim mən,
Fəsillər qaldı arxamda, soyuqda, gündə getdim mən,
Fəqət bir gün qəfil güllə məni göylərdən endirdi.
Aman düşmən, qəfil güllə səni candan sevindirdi.
Fəlakətdir, fəlakətdir ürək sevdadan ayrılsa,
Günəş göydən, ağac yerdən, balıq dəryadan ayrılsa.
Fəqət mən ayrı düşdüm öz qatarımdan, qatar getdi.

Mənimlə həmyaşıd, həmsöz, həmavaz durnalar getdi.
Nə eybi, mən qaldım, getsin mənim pərvazım onlarla,
Qanadlansın mənim nəğməm, mənim avazım onlarla.
Fəqət bir iltimasım var: qatarlar durnasız olmaz,
Qoy uçsun durnalar göydə, qoy uçsun nəğmələr qışyaz.
Soyuq qurşun qəfil güllə, qəfil atəş yaman dərddir.
Üfüqlər adlayan bir nəğməyə kim qıysa namərddir!
Soyuq əllər cüda saldı məni ulduzlu göylərdən,
Qərib bir durna idim ki, qatardan ayrı düşdüm mən...

1973

BULUDLAR

Nə sərhəd bilirsiniz,
Nə qış, nə yay, buludlar!
Uçursunuz hər yerə,
Uzaq kəndə, şəhərə
Halay-halay, buludlar!
Fəqət qalmayırsınız
Bir görkəmdə, bir üzdə.
Səfləriniz pozulur,
Dönüb tanınmaz olur
Dağda, dərədə, düzdə.

Neçə şəklə düşdünüz
Yetincə bir mənzilə.
Ey buludlar, çünki siz
Məqsədimdə, sözümdə
Daim belədən-belə.

Mən sizintək qanadlı,
Səyyar olmaq istərəm.
Lakin hər vaxt özüm də
Məqsədimə, sözümdə
Sabit qalmaq istərəm!

1958

QAR YAĞIR

Gülür insanların üzü, ürəyi –
Bakıya qar yağır.
Bu gün qar yağır.
Sanki nəhəng bir əl nəhəng inəyin
Nəhəng döşlərindən təzə süd sağır.

Cuna örtülüdür evlərin üstü,
Hər kolun başında ağ bir papaq var.
Fürsət uşaqlara düşüb,
Ələüstü
Qarı ovuc-ovuc yumrulayırlar.

Yayınıb qartopu atəşlərindən
Sonatək çığrışır qızlar kənarda.
Başqa bir nəfəri seyr edirəm mən
O, hirslə, qəzəblə donquldanır da:

"Bu təzə uşaqlar, bu təzə nəsil
Ədəbsiz böyüyür görün necə də!
Daha da korlanır bunlar ilbəil,
Rahatca keçmək də olmur küçədən".

Onu qınamıram;
Bölməyir hər kəs
İnsan sevincini, insan qəmini.
Mənimtək, sənintək bilməyir hər kəs
İnsanın sirr dolu öz aləmini.

Bu qar istəyimiz idi nə vaxtdan,
Qış gəlcək biz onu arzulayardıq.
Min səda gələrdi ana torpaqdan:
"Mənim suyum, dənim, yorğanım qardı".

Uşaqlar, atmayın, bir an durun siz,
"Qəzəbli əmi"yə atmayın qarı.
Onun da yerinə məni vurun siz!
Atın, mənə atın o ağ topları!

Sevinc gətirirsə bir anlıq sizə
Qoy hədəf mən olum,
Açıqdır sinəm.
Sizin fərəh dolu gülüşünüzə
Bütün bir ömrümü versəm də, nə qəm!

Bu sevinc, bu fərəh əbədi deyil,
Bəlkə bir də sabah yağmayacaq qar.
Görürəm,
Deyəsən, mübah gəlir il,
Atın, mənə atın qarı, uşaqlar!

1960

YARPAQLAR

Seyr edib sən bu payız çağlarını,
Demə məhv oldu yaşıl yarpaqlar;
Baharın ətirli yarpaqlarını,
Demə sən, uddu soyuq torpaqlar.

Sevgilim, döz, keçəcək fəsli-xəzan,
Gələcək gözlədiyin güllü bahar.
Yenə gömgöy olacaqdır o zaman
Torpaq olmuş saralan yarpaqlar.

Moskva, 1956

DƏNİZ

Sən o qədər genişsən ki,
Yerləşər bir cahan sənə.
Bu ulduzlu kainat da
İnan, sığır gen sinənə.

Sən o qədər dərinsən ki,
Bu dərinlik içində sən
Göz görməyən, əl çatmayan
Min xəzinə gizləyirsən.

Sən o qədər təmizsən ki,
Sularına baş vuranda
Elə bil ki, uçuram mən
Bir buludsuz asimanda.

Gah durğunsan ayna kimi,
Gah coşqunsan, narahatsan.
Çırpınanda şir kimisən,
Bir quzusan susub yatsan.

Mənim ola dərinliyin,
Genişliyin, qüdsiyyətin.
Gah çalxanan, gah durulan
Bu dəlisov təbiətin.

1958

***

Səmadan ağır-ağır
Dənizə yağış yağır.
Damcılar iri, şəffaf,
Büllur kimi təmiz, saf.
Sanırsan yağış deyil,
Göydən ulduz tökülür.
Karvanqıran elə bil
Kəhkəşanda sökülür,
Göydən ulduz tökülür.

Səmadan ağır-ağır
Dənizə yağış yağır.
Dəniz böyük, hüdudsuz,
Tökülən yağış-ulduz

Dənizin qucağında
Qərq olaraq bir anda
Çatır əbədiyyətə,
Qovuşur məhəbbətə
Dənizin qucağında.

Yağışlar şəffaf, iri...
Bir insndır hər biri.
Eynşteyn, Pyer Küri,
Azadlığın Sabiri,
Puşkin, Vurğun, Qaliley,
Füzuli, Heminquey –
Bəşər kəhkəşanından
Yağan ulduz-yağıştək
Bircə-bircə düşərək,
Məhəbbət dənizində
Qərq olur zaman-zaman.

Səmadan ağır-ağır
Dənizə yağış yağır.
Damcılar iri, şəffaf
Büllur kimi təmiz, saf...

1968

DƏNİZDƏ NƏĞMƏ

Üfüqlər arxasında
Gün batır, axşam düşür.
Dənizin aynasında
Ay ulduzla görüşür.
Yatır ləpələr çin-çin,
Qağayılar dincəlir.
Dənizdən bir nəğmənin
Əks-sədası gəlir.

Buludlar karvan-karvan,
Ala-tala buludlar.
Sonsuz səma tağından
Düşür yola buludlar.
İndi gözlərin sənin
Ulduztək bulud dəlir, –
Dənizdən bir nəğmənin
Əks-sədası gəlir.

Tək buruğun ziyası
Uzaqda yanır-sönür.
Sınır suyun aynası,
Gəmi sahilə dönür.
Yolu dolur nur ilə,
Gecə keçir, dan gülür.
O gəmiylə sahilə
Oyaq bir nəğmə gəlir.

Sənsən sahilə dönən...
Ağardıqca qızıl dan,
Sənsən ulduztək sönən,
Günəş kimi parlayan.
Yatdı dəniz, qağayı,
Yatdı ləpə, ağ bulud,
Göydə yatırtdın ayı,
Hər yanı tutdu sükut.

Yatmadın bircə özün,
Yatmadı bircə nəğmən.
Gecə bəyaz gündüzün
Nəğməsini dedin sən.
O, "dur – dedi mənə də, –
Günəş ziyası gəlir!"
Qulağıma yenə də
Onun sədası gəlir.

RUS QIŞI

(lövhə)

Bizim cır alçanın gülləri kimi
Yerin sinəsinə səpələnir qar.
Qızıl şal altdakı telləri kimi
Qalır qar altında yollar, cığırlar.

Salxım sırsıralar qatar-qatardır,
Seyrinə daldıqca açılır ürək.
Hava fərəh verir, sinə qabardır
Sergey Yeseninin şerləritək.

Görünməz bir əllə saxlayıb şaxta
Bulanıq suyunu axan çayın da.
Başını əyərək bir az uzaqda
Durur ağ sinəli ağcaqayın da.

Nə bir ot görünür, nə quru torpaq,
Hər şey qoynundadır qırovun, qarın.
"Bahar bizimlədir!" – söyləyir ancaq
Yaşıl iynələri şamın, küknarın.

Moskva, dekabr, 1958

İlham övladları

NİZAMİ

Bu hansı əsr idi, hansı qərinə?
Torpaq köks ötürdü, yer parçalandı.
Od düşdü Gəncənin meşələrinə,
Yüzillik palıdlar alışdı, yandı.

Sabun köpüyütək qabardı torpaq,
Qabardı, qabardı, partladı birdən.
Alov parça-parça, od qalaq-qalaq
Qalxdı mağmalardan – atəşli yerdən.

Zəlzələ! Bəşərin ilk vahiməsi,
Sonsuz uğultular, atəş vulkanı.
Min il buxovlanmış əjdaha səsi
Lərzəyə salırdı bütün dünyanı.

Bir vaxt hamar olan bu düzən, bu çöl
Odlu eniş-yoxuş, dağlı-dərəli.
Zirvədə yarandı lacivərd bir göl,
Ellər "Göygöl" dedi onu görəli.

Gəncənin görkəmi dəyişdi bütün,
Dedilər gözəllik gəldi cahana.
Bir az aşağıda elə həmin gün
Ağrılar çəkirdi boylu bir ana.

Göylərə qaldırıb titrək əlini
Yusif dua etdi ibadət ilə.
Öz bari-həmlini Gəncə gəlini
O gün qoydu yerə məşəqqət ilə.

O gün zəlzələli qoca aləmə
İlyas Yusif oğlu göz açıb baxmış.
Göygöllə Nizami, yurda sən demə
Həmin bir gün şöhrət yaranacaqmış!

İnqilab olurmuş təbiətdə də,
Bu təsadüf deyil, haqq-hesab idi.
Göygöllə Nizami həqiqətdə də
Yurdumda birinci inqilab idi.

1972

DANTE

Oldu cüdayi-vətən ömrünün gənc yaşında,
Nə rütbəsi, nə böyük şan-şöhrəti var idi,
Nə dəfnə yarpağından çələng vardı başında.

Xəyalında dolaşan şirin arzular idi:
Çıxar Florensiya rəzalət caynağından...
İstəyi bir uğurlu, çiçəkli bahar idi.

Bonifatsi o zaman kəlisa bayrağından
Tutmuşdu ikiəlli, əməlində fitnə, şər.
Əxlaqsızlıq yağırdı kilsənin qucağından.

Nadan ikiüzlülər, rüşvətxorlar, əyrilər
Kilsədə vaiz idi, təxti-tacda hökmran.
Keşiş hakimdən alçaq, hakim keşişdən betər.

O şəxslər ki ömrünü verə bilərdi qurban
Gülsün Florensiya, çatsın şana-şöhrətə –
Onlar zindan küncündə çürüyürdü haçaqdan.

Lakin İtaliyanı bir parça yağlı ətə,
Ya bir boyun xaçına, bir rütbəyə satanlar
Qurşanırdı sarayda kcyfə, eyşü-işrətə.